# Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında növbəti dəfə medal qazanan Raman Saleyi təbrik edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycanın paraüzgüçüsü Raman Saleyin "Paris-2024" Yay Paralimpiya Oyunlarında bürünc medal qazanması ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir:

"Raman Saleyin növbəti qələbəsi! Bürünc medal! İdmançımızın əldə etdiyi medallar məharətin, güclü iradənin və qələbə əzminin layiqli mükafatıdır! Paraüzgüçünü səmimi-qəlbdən təbrik edir, ona yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!"

Xatırladaq ki, Raman Saley avqustun 31-də S12 kateqoriyasında 100 metr məsafəyə arxasıüstə üzmə yarışında qüvvəsini sınayıb. O, finişə 1:00:67 dəqiqə nəticə ilə çataraq ikinci olub və gümüş medal qazanıb.

Azərbaycan.- 2024.- 5 sentyabr (№ 192).- S.1.